“Bu obadan olub neçə Ləlamiz...”

BARAT VÜSAL

...O atdı özünü varın qoynuna,
Bahar günlərindən qarın qoynuna.
Mən həsrət çəkiram varın qoynuna qoyna...qalanda mənə tanır...mənimlə...

Bu qoca ovçuydu, bir vaxt meşədən
Dönərdi evinə xallı əliklə.
Baxıram, dünyanın işinə bax, sən,
Qayıdır indi də bir cüt çəliklə.
Yolunu gözlərddi evdə bir maral,
Deyərdin, yer-goy də bu gözəlindir.
Qaş qara, göz qaynar, yanaqlar da al,
Gördüyün bu qarı həmin gəlindir.

Dərin mənalı, fəlsəfi məzmunlu bu poetik nüminə şair Ələddin İncəliyə məxsusdur.Yazıldığı vaxtdan -1973-cü ildən yaddaşımdadır. Onda mən təyinatla Sabirabad rayonuna müəllim işləməyə gedirdim.

Yolumu Qazaxda redaksiyadan saldım ki, ustadla sağollaşım.

Mənə bir silsilə təzə yazdığı səkkizlikləri oxudu. O qədər xoşuma gəldi ki, məcbur oldum, bəzilərini yazıb götürdüm.

İşlədiyim kəddən ona məktub yazdım, bir neçə şeir də göndərdim. Az keçmədən cavab da aldım. Ustad mənə uğurlu yol yazmış, həmin şeirləri öz işlədiyi qəzetdə çap etdirmişdi. Şeirlərimdən biri belə adlanırdı: “Hara aparırsan ay ürək, məni?”

O, uğurlu yola belə bir başlıq seçmişdi:“Poeziyaya doğru”. Yəni demək istəmişdi ki, mən bilirəm, ürəyin səni hara aparır...

Ələddin İncəli sənət yollarında məndən qabaq Məmməd İsmayıl, Nüsrət Kəsəmənli, Müzəffər Şükür Məchul, Səyavuş Sərxanlı və onlarca istedadlı gənclərə qayğı göstərmiş, uğurlar dilədi.

Mənə yazdığı məktubda “Bu obadan olub neçə Ləlamiz” deyən şairin özü də ustad idi-Lələ idi!

Vəzifəsi nə olursa olsun, o, yazı dostlarına məhəbbət dolu yoxlamalarının xatirələri, ürək sözləri ola-bilə, dəyə düşündüm.

Və əslində insanların öz işığı sönəndə xatirələrinin işığı yanır.

Məmməd İsmayıl :

”Mənim sonralar qazandığım az-çox uğurlarda sənin də payın var Ələddin müəllim.Sənin tə-

...Yadındamı, Ağstafadakı “Qarabağ” restoranında

idin. Şair kimi şeirlərin dillərə düşmüşdü:

Yanı gah balalı, gah təkəlidir,
Qorxaqdır, ürəkdir, səksəkəlidir.
Gözəllik özü də təhlükəlidir,
Odur ki, tez tapır bəla ceyranı.

Bu misralar Səməd Vurğunun məşhur “Ceyran” şerindən çox sonra yazılsa da, sən o şeirin təsirindən çıxıb eyni mövzuda yeni, əvəzsiz bir əsər ortaya qoymuşdun...

Redaksiya nəzdində “Ədəbiyyat dərnəyi” təşkil etmişdin. O dərnəyə Şəmkirdən, Qazaxdan, Ağstafadan gənc şairlər axışıb gəlirdi. Onların arasında Tovuzun Əsrik-Cırdaxan kəndindən yetim, kimsəsiz bir oğlan da vardı. O yetim oğlanın özü və sözü haqda ilahi vəhlə yazdığın ilk yazı yadına gəlirmi, Ələddin müəllim?Əlin uğurlu olacaqdı...

...Bütün çabalarına baxmayaraq elçiləri “yox” cavabı ilə üstünə qayıdan o yetim oğlanın arzusu gözündə qalacaqdı.

...Sənə müraciətlə yazılmış şeir Tanrı məqamında həm də sənin şeirindir:

Ay şair Ələddin, şair dostunun
Açılmır qabağı-qaşı bir ildir.
Olub məhəbbətdən illər xəstəsi,
Ayılmır sevdadan başı bir ildir.

Orda ləzzət çəkir naşı bir ildir.

...Ay Məmməd ,haqlayar səni subaylıq,
İslanar, quruyar verdiyi yaylıq.
Onun körpəsinin yaşı üç aylıq,
Mənim həsrətimin yaşı bir ildir.

...Bir şaxtalı qış günündə Bakıdan Ağstafaya şairlər gəlmişdi.Gədəbəyə oxucularla görüşə gedəcəklərdi. Yerli şairlərdən birini də özləri ilə görüşə aparmaq istəyirdilər.

Adamı donduran qış soyuğunda Gədəbəyə gedəcək əyinbaşım yoxdu.Əynindəki təzə paltonu çıxarıb o yetim oğlana geyindirəcəkdin.

Oğlan güzgüdə özünə baxdıqca baxır, vurulduqca vurulurdu.

Və o zaman güzgüdə ikinci bir adam da peyda olacaqdı. “Ayə, bu kimin paltosudur, keçirmisən əyninə, soyun, soyun, başın haqqı, heç sənə yaraşmır, özgə danası bağlayanın çatısı əlində qalar, soyun...”

Bu rəhmətlik Hüseyn Arifin səsi idi.

...Əziz qardaşım, bir ildən sonra o yetim oğlanı Ağstafada

rüst ifadə edib:

Haladı bu haqqa nail olmağın,
Haladı bu haqqa qail olmağın.
Şair Ələddin tək şair olmağın
Bir yetim qədər də şərti var, abi!

Bu şeir yazılanda Ələddin İncəlinin 70 yaşı tamam olmuşdu. Onda M.İlqar demişdi ki, Ə.İncəli kimi şair olmağın 70 şərti vardır. Bu il ustadımızın 90 yaşı tamam olur. İndi yaxşı şair olmağın şərti bir az da artıb, dəyişib, çətinləşib.İndi təzə hesabla Ələddin İncəli kimi yaxşı şair olmağın 90 şərti var.

Qafar Sarıvəlli:

“Ələddin İncəli hər dəfə Bakıda görüşürdü. Hətta mənə bir neçə şeir də həsr etmişdi:

Gözəllik ovçusu olduq hərəmiz,
Mən şair, sən rəssam-birdi bərəmiz.
Yazda tamaşadı İncə Dərəmiz,
Vəsfini mən yazım, rəsmini sən çək!

İbrahim İlyaslı:

“Ələddin İncəli-bu imza bizim uşaqlıq, eləcə də yeniyetməlik çağlarımızda bir mif kimi qəbul olunmuşdu. Mif kimi də əlçatmaz idi.

AYB Qazax Zona filialının ofisində ilk dəfə onu görəndə əməllicə özümü yığışdırdım.”

Xalq şairi nəriman Həsənzadə:

“Nizamiyə şah misramtək hörmət eyləyin,
“Camiyvatdan” Vüqadini dəvət eyləyin.
Akif mənim gəncliyimdi, diqqət eyləyin,
İncəlinin dilindədir şeiri Vurğunun,
Yanımızda boş qalmasın yeri Vurğunun!”

Rəfail İncəyurd:

“Ələddin İncəli sadə, sadəlövh, saf, pak, içi ilə çölü üst-üstə düşən fərqli bir şəxsiyyət idi. Anadangəlmə şairiydi.”

Humay Həsənova (qızı):

O , həmişə 8 rəqəmindən qorxardı. Çünki 8 oktyabr 1988 -ci ildə sevimli həyat yoldaşını itirmişdi... Özü isə 8 noyabr 2017-ci ildə 88 yaşında dünyasını dəyişdi.

Keçən yüzilliyin 90 –cı illərinin əvvəllərində yurdumuza qarşı yenidən erməni təcavüzü başlayanda bu mübariz şair rayon mərkəzindən ucqar sərhəd kəndinə-doğma Kəmərliyə köçür. Köçür ki, kənd ayaqda dursun, yerli camaatın müqaviməti daha da artsın. O bu məqsədlə kənddə səngər də qazır.”

Mübariz Qaragözlü:

“Dəfələrlə mərkəzdəki saysız-hesabsız dostlarının dəvəti, köməyi, çağırışı, bəzən təkidi ilə “yuxarılara” getmək imkanı olsa da Qazağı,İncəni tərk etmədi!

Dəfələrlə “Mübariz, arvad be-

yleyib, gilas eyləyib,
uxıb, həm xilas eyləyib.

...Bir, iki, üçü nəzərdə şirin gilasa rənginə
zünə baxa bilmədim.
asdan elə yıxıldım,
gilasa çıxa bilmədim.

...Düz deyirdi ustad!

Ölümündən bir az əvvəl Bakıdan yazıb mənə bir şeir göndərmişdi.

“Barat Vüsala məktub” adlanan bu şeir belə başlayırdı:

Mən getdim ay Barat, salamat qalın!
Ulu Tanrımıza əmanət qalın!
Hər uçmaq istəyən bala tərlana
Ustad kimi verin qol-qanad, qalın!

Bu şeirin məzmunu və içindəki ürfani işığı adama Vaqif Səmədoğlunun ölümündən qabaq dediyi (elan etdiyi!) kişiyanə, mərdanə çağırışı xatırladır: “Sizi özümün yasıma dəvət edirəm!”

Həmin şeirin bir beyti isə elə

var, biz varıq,”-dedi.

Natəvan Dəmirçioğlu:

“Özündən əvvəlki min beş yüz illik Oğuz şeirinin mayasına haram qatmadan yazıb-yaratmış Ələddin İncəlinin şeir tariximizdə öz xidmətləri var...

İncə dərəsinin bütün müasir şairləri Ələddin İncəlinin yolunu gəlir. İncə şair yolunun karvanına o sarvanlıq edir. Qafur Qulam deyirdi: Ustadını ötən şagird ustadının bayrağıdır.” Şair Ələddin İncəlinin Ağamalı Sadiq Əfəndi, Təcnis İlqar, İbrahim İlyaslı kimi dalğalanan uca bayraqları var.”

...Yadımdam
Görəndə ü
Qırmızı gila
Vallah, ağ-

(Bizl
görə qırmı

Ömü
Bir tə
ağ halda
O tə
yazmağa
P.S
“Volter Ş
nir?” Filo
deyib:” M
amma Şe
Bu fi
mağa çal
necə fəql
cavab be
yib:
“Mə
Şair də v
Ələd
aid şairlə
qar ona b

körpü”nün o başında qarşılaşdıq. Sən şəhərin mərkəzi tərəfdən gəlirdin. Mənsə isə tələsirdim. Soruşdum ki, belə gecdən (yəni tezdən) hardan gəlirsən belə?

Dedin:

İndicə qapını döyüb gəlirəm,
Arxanca o ki, var, söyüb gəlirəm.

Dəsvaha şeirin davamı məndən gəldi:

Mən də Kosalardan eşidən kimi,
“Ələddin İncəli!” deyib gəlirəm.

Dodağı qaçdı:

“Hə, yadıma düşdü.”

-Gilas əhvalatı necə, yadından çıxmayıb ki? Məndən gilas istəmişdin ha, demişdin ki, bizim arvad onun mürəbbəsini çox xoşlayır.

Düz bir aydan sonra gilaslar soyuyanda görüşəsi olduq. Sən “Ə, bə gilas nə oldu?” deyəndə mən “Eşitməmisənmi, gilasdan yıxılmışdım”- dedim.

Əhvalatı nağıl elədim:

Qapımızda yekə bir şirin gilas ağacı vardı. Onun başına çıxmaq istəyəndə tutduğum bir quru budaq necə qırıldısa zərbə əvvəlcə məni ağacın gövdəsinə çırpdı, sonra da kəndirbaz kimi ondan bərk yapışdığım üçün budaq qarışıq özümü bir az tarazlayıb yerə sərildim. Yaxşı ki, heç nə olmadı.

Sən bir balaca ağ kağız götürüb bədahətən nəsə yazdın, oxu, dedin.Oxudum:

Eşitdim gilasdan yuvarlanıbsan.

Sənə nə o
Sənə həm y

mən də sənə calaq vurmaq öyrətdim, qalan borcum nə qədərdir?” soyləmişdim.Ona ləzzət eləmişdi, tez-tez onu danışıb gülüşürdük.

Vaxtaşırı zənginləşirdik. Axır vaxtlar ağrılarının ağırlığını duy-

şəm,- demişdi...”

Həmid Ormanlı:

“Hacı Mahmud babamdan sonra tanıdığım ilk İncəliydi Ələddin müəllim.İncə dərəsinin ruhu onlarda yaşayırdı.”

Ramiz Qusarçaylı:

“Onunla iki dəfə Qazaxda, Səməd Vurğunun 100, Barat Vüsalın isə 60 illik yubiley tədbirlərində görüşmüşəm.

“Nə qədər ki, söz var, sənət

qalıb qəzetdə işləməyə qoymayacaqdın: “Çıx get, Bakıya, burada qalsan əyalət küncündə məndən beş-betər olacaqsan.”

Məmməd Dəmirçioğlu:

“Çox duru insandır, Ələddin İncəli. İncə dərəsinin ilk şairidir, söyləsək, yanılmış olmarıq.Bütün ömrünü şair kimi yaşamış, xeyli sayda kitabların müəllifidir. Bu müdrik insan o nadir insanlardandır ki, bir adamın könlünü qırmamış, ancaq yaxşılıq etmək,qayğı göstərmək, əyiləni düzəltmək kimi işlərlə məşğul olmaq ömrünün, yaşamının kredosu olmuşdur”

Nə bilər dünə
Göz ol cavanla

...Dediyi kim
son dəfə sözü gəl
di.

Yanına getdi
məsləhətçi Mustaf
gənc şair Elnur Sü
ni qarmaqarışıq
yındırmağa çalışd
tədik kefini açmaq

Dedim ki, Ələ
dındamı bir səhər